

# BAYAT



№ 19 (601)



Rəfail Tağızadə

### Kölgəsiz söyüd

Sənin dərdlərini tək çəkmək olmur.
Dərdlərin o qədər, yüklər o qədər.
Ağrılar o qədər qalaqlanıb ki,
bilmirsən haradan sökülər bu yük,
dərdin də, qəmin də özündən böyük.
Dartdıqca ayrılan, üzülən deyil,
bir ömür boyunca dözülən deyil.
Kim deyir bu dərdlər bölünən deyil?
Bu dərd öz-özünə çözülən deyil.
Kənardan sıxılır, içdən sıxılır,
ayaqdan sıxılır, başdan sıxılır,
arzusu, istəyi, ümidləri də
bətndə qırılır, üzdə qırılır,
bu vətən, bu torpaq içə yığılır.
Düzəni dərd çəkir, dağı dərd çəkir,
xəlbəti dərd çəkir, aşkar dərd çəkir,
toplusu, nəfəri - hamı dərd çəkir,
baxıb qonşulara xəcalət çəkir.
Ölüsü diridən betər dərd çəkir,
ölüb bu dərdlərdən qurtara bilmir.
Vətən ağrısından qurtula bilmir.

Bu ölkə kölgəsiz söyüd kimidi.
Bir barsız, budaqsız söyüd ölkəsi.
Gələn budağını vurub aparır,
görən kölgəsini yığıb aparır,
sevincin üzündən dartıb qoparır.
Kiçilə-kiçilə getdi bu vətən,
o yandan, bu yandan itdi bu vətən,
qəmlərin içində bitdi bu vətən...
Özü kiçildikcə dərdi böyüyən
Vətən, dərdlərini tək çəkmək olmur.
Ağrından, acından əl çəkmək olmur.

### Güllə səsi gəlir yerin altından

Bu gedişin, zamanın... qəmi var, ağrısı var,
içində naləsi var, dərdi var, yanğısı var.

Körpələr boylanır təpə qəbirdən,
körpələr boylanır qəbir qucaqdan,
körpələr boylanır qan quyusundan.

Bir körpə anasın axtarır hələ
açılan güllənin alovlarında.

Bir gözdə analar güllələndilər,
bir gözdə ataya uçdu güllələr.
Güllələr körpənin son oyuncağı,
güllələr körpənin son dayanacağı.

Körpənin torpaqlı tər sinəsində
sevdiyi qırmızı lalə böyüyür,
üstündə bir qara güllə yarası.

Günahsız körpələr, məsum körpələr
körpə paylarını yaşamadılar,
körpə çağlarını yaşamadılar,
körpə adlarını daşımadılar.

Yarımçıq qoyulan ömür payıyla,
üzündə o donmuş sevinc halıyla,
bir körpə dolaşır, bir körpə gəzir
Qanlı Xocalının gecələrini,
Kərkükün, Mosulun...
Hələb, Kabulun,
köhnə Varşavanın...
Bağdad, Dəməşqin,
Qarabağın
sevincsiz, uşaqsız küçələrini.

Ötür, illər ötür, zaman dəyişir,
səndə də, məndə də güman dəyişir...
Axşamın birində, günün birində
bu qara dünyada, yalan dünyada
kor fələk dolanan məkan dəyişir.
Baxışlar dəyişmir, sükan dəyişir.
Naqisin xisləti dəyişmir hələ,
nifrətlər sevinclə bölüşmür hələ,
körpə gülüşləri öpüşmür hələ.
Təmiz bildiyimiz o boz səmadan
mərmilər tökülür, bombalar yağır
körpə evlərinə, uşaqlı evə.
Güllə səsi gəlir yerin altından...
Güllə səsi gəlir oyuncaqlardan...

### O əllər

Hər səhər, hər axşam o pəncərədən
məni yola salan, mənə əl edən,
arxamca su atan, "yaxşı yol" deyən,
o əllər çağırsam gələrmi yenə?

Üzümün sığalı itib nə vaxtdı,
saçımın tumarı itib nə vaxtdı,
köksümdə min qubar bitib nə vaxtdı,
o əllər çağırsam gələrmi yenə?

Zamanın nə fərqi, günün nə fərqi,
sevinci apardı, vər saldı dərdi,
gedişin könlümə bir kölgə sərdi,
o əllər çağırsam gələrmi yenə?

Əlimə əl dəyər, üzə qan gələr,
dil açıb danışar, cana can gələr,
məni yuxulardan oyadan gələr,
çağırsam gələrmi o əllər yenə?
Ömrümü bəzərmi o əllər yenə?...

### Yoxluğun elegiyası

Hər dəfə yuxuda görəndə səni,
həyətdə görürəm, evdə görürəm.
Mən səni hər zaman kənddə görürəm.
Yüyürən görürəm, qaçan görürəm,
danışan görürəm, gülən görürəm.
Mən səni, mən səni belə görürəm.

... Bu dəfə üzünü görə bilmədim.
Utandım.
Üzünə baxa bilmədim.
Danışa bilmədim,
dinə bilmədim:
Zaman çox şeyi dəyişib.
Kənd də daha o kənd deyil.
Yollar da,
cığırlar da itib,
evlər də,
adamlar da...
ağaclar da küsüb.
Torpaq da əlini bizdən üzüb.
Orda yer də, göy də
bu dünyadan üz döndərib:
boşluqdan içini qucaqlayan
təndir də,
künbəz də,
ətrini itirən qızılgüllər də,
qana boyanan arxlar da,
o xoş günü itirən xoş baxtlar da.
Sən olmayan evdə hər şey dağınıq,
sən olmayan yerdə hər şey boşluq,
yerini dolduracaq heç nə yox...
Qorxdum boşluqdan, ana,
yaman qorxdum.
Geri döndüm.
Səni itirdiyim yerdə tapmağa.

Sabah yenə ziyarətinə gələcəm.
O gülər üzündən
solğun bənizimə təbəssüm qatmağa,
boşluğu içimdən atmağa.
Qucaqla məni, ana,
qucaqla daşlaşmış qollarınla.
Sığal çək bozarmış üzümə,
sənsiz dünyanı ağ-qara görən gözlərimə,
sığal çək bərkimiş əllərinlə.
Başımı buz kimi dizinə qoyum,
bir günlük səndən doyum.
Qoynuna sığınmaq üçün
daşımı oyum?
Oyummu, ana?
Əvvəlkitək al məni,
al məni qoynuna.

Səni apara bilmədim.
Nə əlindən tutub gedə bildim,
nə yanına düşüb gedə bildim,
nə qoluna girib gedə bildim,
ANA!
Son arzum qaldı ürəyimdə.
Apara bilmədim səni
xoşbəxt olduğun yerə,
deyib-güldüyün yerə,
olmaq istədiyin yerə...
Gücüm çatmadı.
Oğul gücüm, ağıl gücüm.
Nə səni qoruyub saxlaya bildim,
nə yurdu.
Hər şeyi itirdim,
Səni də,
yurdu da,
zamanı da...

Yoxluğun dəyişdirdi adımı.
Mən də daddım anasızlıq dadını.

Təkcə atama uzanan yolun işığına
qısılmışam.
Kəndimizə gedən yolun birinə qaranlıq
çökdü.
Buludlar yollara göz yaşı tökdü.
Göy üzünü almış
qapqara buludlar.
Üstümə yüyürür
saralan umudlar.
Anam da yox,
görən məni kim ağlar?...
Qara daşdan
bulaq gözlü
anam ağlar,
oyyy..., ağlar.

### Bir olan şəhərimiz

O şəhər bizim şəhərə oxşayırmı?
Səninçün qəribdimi,
Özünə qərib şəhər?
Gündüzü yuxulu,
Gecəsi də birtəhər.
Məmuru adamlarına baxırmı?
Yorulub uzanan küçə
Gecə dənizə axırmı?
Bir-birinə bənzəyirmi
Bir olan şəhərimiz?
İnsan getdiyi yerə
Özünü daşıyırmı?
Gecələr qaldığı yerdə
içindəkilərlə yaşayırmı?

Oralarda havalar necədi?

mehindən küləyi çox,
istəkdən diləyi çox,
mələkdən fələyi çox,
bir olan şəhərimin

göz yaşı yağışdımı,
dərdləri çağrışdımı,
ahları qarğışdımı,
bir olan şəhərimin?

suyu süzülüb gedir,
qəmi düzülüb gedir,
sevinci üzülüb gedir,
bir olan şəhərimin...

### Yaman dəyişmisən

Yaman dəyişmisən o gündən bəri.
Ala gözlərinə bir həsrət qonub,
saçının tumarı dəyişib bir az,
əllər sığalını itirib bir az,
üzündə təbəssüm azalıb bir az...
Yaman dəyişmisən o gündən bəri.

Deyəsən bir az da solan kimisən.
Bir az da, bir az da dolan kimisən.
Gecən bir xoş sözün səsinə möhtac,
gecən bir öpüşün közünə möhtac,
gecən ehtiyacın özünə möhtac.
Yaman dəyişmisən o gündən bəri.

Yanağın allanmır, gözlərin gülmür,
ürəyin danışmır, ürəyin dinmir,
qısılıb içinə bir qonaq kimi,
ağıla uduzan bir qınaq kimi...
Yaman dəyişmisən o gündən bəri.

Gözlər gözlədiyi baxışı istər,
əvvəlki, o ərkli çağrışı istər,
açıb pəncərəni, açıb qapını
közərən ümidə boylanar yenə.
Sənin bu halına dözməz gözlərim:
təzə baxışlarım dəyişər səni,
üzdə naxışların dəyişər səni,
ürək alqışların dəyişər səni-
keçən günlərinə qaytarar səni.
Daha dəyişərsən bu gündən belə.
Yaman dəyişmisən, bir bax özünə...

### Oteldə pəncərəmi döyən göyərçinlərə

Mənim pəncərəmi döyən göyərçin,
uçaqmı, gedəkmi bu səhər çağı?
Bu gecə yuxuda gördüyüm yerin
quruyub ağacı, bozarıb dağı.

Mənim pəncərəmi döyən göyərçin
yenə pəncərəmdə xalı toxuyur.
Mənə yazdıqları nöqtə məktublar
könlümə yanıqlı "Segah" oxuyur.

Bizim oxşar olan taleyimizdi.
Yurdsuz-yuvasızıq, evsiz-eşiksiz.
Xəyalla yaşayan qəriblər təki
qonaq evlərində tapışarıq biz.

Mənim pəncərəmi döyən göyərçin,
pəncərə köksümdü sənə bu səhər.
Döyüb, döyüb oyat sönmüş ruhumu,
özgə evlərində yaşamaq yetər.